| "RAZILAŞDIRILMIŞDIR": | "TƏSDİQ EDİLMİŞDİR": |
|---|---|
| Azərbaycan Respublikasının Mərkəzi Bankı | "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyəti |
| (imza/ möhür) | (imza/ möhür) |
| Baş direktor | İdarə Heyətinin sədri |
| Ziya Əliyev | Uğur İbrahimli |
| "29" mart 2024-cü il | "20" fevral 2024-cü il |

# HÜQUQİ ŞƏXSLƏRİN VƏ SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN FİZİKİ ŞƏXSLƏRİN ƏMLAKININ SIĞORTASI QAYDALARI

**BAKI – 2024**

# HÜQUQİ ŞƏXSLƏRİN VƏ SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN FİZİKİ ŞƏXSLƏRİN ƏMLAKININ SIĞORTASI QAYDALARI

Hüquqi şəxslərə və sahibkarlıqla məşğul olan fiziki şəxslərə məxsus olan əmlakın sığortası Qaydaları (bundan sonra mətndə «Qaydalar» adlandırılacaq) Azərbaycan Respublikası qanunlarının və digər normativ-hüquqi aktlarının tələblərinə müvafiq işlənib hazırlanmışdır. Hüquqi şəxslərə və sahibkarlıqla məşğul olan fiziki şəxslərə məxsus əmlakın sığortası müqaviləsinin (bundan sonra mətndə «sığorta müqaviləsi» adlandırılacaq) ayrılmaz tərkib hissəsidir.

Bu Qaydalar Sığorta Şəhadətnaməsi, Sığortalı tərəfindən doldurulmuş Ərizə forması və müvafiq Əlavələr bütövlükdə bir müqavilə hesab edilir.

Ərizə forması müqavilənin əsası sayılır və sığorta təminatı Ərizə formasında Sığortalı tərəfindən göstərilmiş məlumat və Ərizə formasında qeyd olunmuş Sığortalının bəyannaməsi əsasında verilir.

Bu Qaydalarla müəyyən olunan "Hüquqi şəxslərə və sahibkarlıqla məşğul olan fiziki şəxslərə məxsus olan əmlakın sığortası" növü əmlakın yanğından, digər risklərdən və işin dayanması ilə bağlı risklərdən sığortası sinifinə aid edilir.

## ÜMUMİ MÜDDƏALAR

"Meqa Sığorta" ASC (bundan sonra «Sığortaçı» kimi adlandırılacaq) Sığortalılar ilə Azərbaycan Respublikasının qanunvericiliyi və hazırkı «Hüquqi səxslərin və sahibkarlıqla məşğul olan fiziki şəxslərin əmlakının sığortası Qaydaları» əsasında (bundan sonra «Qaydalar» kimi adlandırılacaq) hüquqi şəxslərə məxsus əmlakın könüllü sığortası müqaviləsini (bundan sonra «sığorta müqaviləsi» kimi adlandırılacaq) bağlayır.

## 1. QAYDALARDA İSTİFADƏ OLUNAN ƏSAS İFADƏLƏR

Bu Qaydalarda aşağıda göstərilən anlayışlar hər hansı bir yerdə istifadə olunmasından asılı olmayaraq eyni məna daşıyırlar:

**Sığorta riski və ya risk** – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlikdir.

**Sığorta məbləği** – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddidir .

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsi ilə nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

**Sığorta hadisəsi** -Qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan haldır.

**Faydalanan şəxs** – sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxsdir.

**Azadolma məbləği** – sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir.

## 2. SIĞORTA SUBYEKTLƏRİ

2.1. Təşkilati-hüquqi formasından asılı olmayaraq, Sığortaçı ilə müllkiyyət (sahiblik, istifadə və sərəncam) hüququ əsasında sahib olan əmlak üzrə və ya vəkalət idarəsi, icarə, lizinq, girov, saxlama, komissiya, satış və ya digər hüquqi əsaslarla götürülmüş əmlak üzrə sığorta müqaviləsini bağlayan hüquqi şəxslər sığortalılar hesab olunur.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər məxsus əmlakın sığortası üzrə sığorta müqaviləsi bağlandığı zaman fəaliyyət qabiliyyəti olan və müllkiyyət (sahiblik, istifadə və sərəncam) hüququ əsasında bu əmlakın sahibi olan və ya vəkalət idarəsi, icarə, lizinq, girov, saxlama, komissiya, satış və ya digər hüquqi əsaslarla bu əmlakı əldə edən fiziki şəxslər (Azərbaycan Respublikasının vətəndaşları, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər) sığortalılar hesab olunur.

Sığortaçı - Azərbaycan Respublikasının qanunvericiliyi əsasında sığorta fəaliyyəti göstərən və Azərbaycan Respublikasında sığorta fəaliyyətinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanından xüsusi razılıq almış «Meqa Sığorta» Açıq Səhmdar Cəmiyyətidir.

2.2. Əmlak qanun, diqər hüquqi akt və ya müqavilə əsasında onun qorunub saxlanılmasında marağı olan şəxsin (Sığortalı və ya Faydalanan şəxsin) xeyrinə, Sığortaçı tərəfindən sığortalana bilər. Sığortalının və ya Faydalanan şəxsin sığortalanmış əmlakda qanuni marağı olmadığı halda bağlanmış sığorta müqaviləsi etibarsız hesab olunur.

Sığortalı müqavilənin qüvvədə olması zamanı müqavilədə göstərilmiş Faydalanan şəxsi Sığortaçını yazılı şəkildə məlumatlandıraraq digər şəxs ilə əvəz etmək hüququna malikdir. Bu əvəz etmə sığorta müqaviləsinə qəbul edilmiş müvafiq Əlavədə əks olunmalıdır.

2.3. Sığortalıya aid olan öhdəliklərin Faydalanan şəxs tərəfindən yerinə yetirilməsi və ya müqavilə ilə digər şərtlər nəzərdə tutulmayıbsa, Sığorta müqaviləsinin Faydalanan şəxsin xeyrinə bağlanması Sığortalını həmin müqavilə üzrə öhdəliklərinin yerinə yetirməsindən azad etmir.

## 3. SIĞORTA PREDMETİ

3.1. Sığorta predmeti hazırkı Qaydalara müvafiq olaraq sığorta olunmuş əmlakın itirilməsi (məhv olması), ona zərər vurulması, çatışmaması riski və sığorta hadisəsinin baş verməsi nəticəsində iş fəaliyyətinin dayanması ilə əlaqədar yaranan sığortalanmış xərclərin və zərərlərin əmələ gəlməsi riski ilə bağlı və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan əmlak mənafeləridir.

3.2. Bu Qaydalar əsasında bağlanmış sığorta müqaviləsi ilə aşağıdakılar sığortalana bilər:

3.2.1. Bütün daşınmaz əmlak obyektləri (müqavilə ilə digər şərtlər nəzərdə tutulmayıbsa - bina və tikililər, lakin yer sahələrinin, yeraltı sərvətlər yataqlarının və su obyektlərinin istisna olunması şərti ilə) və onların ayrı memarlıq və konstruksiya hissə və elementləri (binaların hissələri, yaşayış və qeyri-yaşayış binaları, onların daxili təmir və bəzəmə işləri, mühəndis infrastrukturun elementləri);

3.2.2. Daşınan əmlak (avadanlıq, güc və digər maşınlar, ötürücü mexanizmlər, inventar, hazır məhsullar, satışda olan mallar, xammal, materiallar və s.);

3.2.3. Bir funksional təyinatı ilə bağlı olan daşınmaz və daşınan əmlakı özündə cəmləşdirən əmlak kompleksləri (müəssisələr);

3.2.4. İş fəaliyyətinin dayanması nəticəsində yaranan xərc və zərərlər.

3.3. Sığortalanmış əmlakı müəyyənləşdirmək məqsədi ilə sığorta müqaviləsində aşağıdakı məlumat göstərilməlidir:

- müvafiq torpaq sahəsində (ünvan və s.) və ya digər daşınmaz əmlakın daxilində (mərtəbə, otaqların nömrələri və s.) olan daşınmaz əmlakın yerləşməsini müəyyənləşdirən məlumatlar
- avadanlığın, maşınların təsviri (növ, istehsalçı, model nömrəsi) və s.

3.4. Daşınmaz əmlak onun daxilində olan ayrı-ayrı əşyaların müəyyənləşdirilməsi aparılmadan, lakin sığortalanan əmlakın təsnifat əlamətləri üzrə ayrılmış müxtəlif növlər və qrupların göstərilməsi şərti ilə sığortalana bilər (misal üçün, avadanlıq, iventar, xammal, materiallar və digərləri).

3.5. Qəza vəziyyətində olması müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş bina və tikililər və

onların içərisində olan əmlak heç bir halda sığorta olunmuş hesab edilə bilməz.

## 4. MADDİ ZƏRƏRLƏRİN SIĞORTASI

4.1. Sığorta haqqının ödənilməsindən sonra Sığorta Şəhadətnaməsində göstərilmiş əmlak sığorta müddəti ərzində və sığorta şəhadətnaməsində göstərilmiş risklər nəticəsində itirilərsə, məhv olarsa və ya zədələnərsə (bu Qaydaların şərtlərinə, müddəalarına, istisnalarına və təminatına uyğun olaraq) Sığortaçı Sığortalıya həmin əmlakın zədələnməsi və ya məhv olması anına olan bazar dəyərini və ya dəyən zərərin məbləğini ödəyəcək və ya Sığortaçının seçimi ilə bu əmlakı və ya onun zədələnmiş hissəsini bərpa və ya eyni tipli əmlak ilə əvəz edəcək (köhnəlməyə görə müvafiq məbləğin çıxılması şərti ilə). Lakin Sığortaçının bu əmlak üzrə öhdəlikləri aşağıda göstərilən hədlərdən artıq ola bilməz:

4.1.1. Ümumilikdə və ya hər bir bölmə və ya hər bir əmlak üzrə sığorta məbləği və ya hadisə zamanında onun bazar dəyəri ;

4.1.2. Sığorta müddəti ərzində baş vermiş sığorta hadisəsi(ləri) üzrə ödənilmiş məbləğ(lər) çıxıldıqdan sonra sığorta məbləğinin qalıq hissəsi (lakin əlavə sığorta haqqının ödənilməsi şərti ilə sığorta məbləğinin azalmış hissəsi yenidən bərpa oluna bilər).

4.2. Bu bölmə üzrə sığorta təminatı Sığorta şəhadətnaməsində və ya sığorta müqaviləsinə qəbul edilmiş müvafiq Əlavələrdə müəyyən edilmiş sığorta müddəti ərzində və göstərilmiş sığorta risklərinin baş verməsi nəticəsində sığorta olunmuş əmlakın itirilməsinə və zədələnməsinə qarşı verilir.

## 5. SIĞORTA RİSKLƏRİ

**Sığorta təminatı Sığorta Şəhadətnaməsində və ya sığorta müqaviləsinə qəbul edilmiş müvafiq Əlavələrdə göstərilən risklərə dair qüvvədədir və həmin risklər aşağıdakı kimi başa düşülməlidir:**

### 5.1.1. YANĞIN VƏ/VƏ YA İLDIRIM VURMASI

Bu Qaydalara əsasən yanğın dedikdə, alovun qalanması və ya saxlanması üçün ayrılmış xüsusi yerlərdən kənarda, özbaşına yayıla bilən alovun əmələ gəlməsi nəzərdə tutulur. Odun təsiri nəticəsində baş vermiş, lakin yanğının nəticəsi olmayan zərərlər, həmçinin sığortalanmış əmlakın emal edilməsi və ya digər məqsədlə (məsələn, qurutma, qaynatma, ütülmə, hisdə qurutma, metalların isti emalı və əridilməsi üçün) alovun, istiliyin və digər termik mənbələrin təsirinə məruz qalması nəticəsində dəymiş zərərlər, habelə yanğın nəticəsində əmələ gəlmiş partlayışların törətdiyi zərər və itkilər təmin olunmur.
İldırımın sığortalanmış əmlakı birbaşa vurması ildırım vurması sayılır.

### 5.1.2. PARTLAYIŞ

Qaz və buxarların genişlənməyə meyilli olmasından irəli gələn enerjinin ani təsiri partlayış sayılır. Rezervuarın (qazanın, boru kəmərinin) partlaması, onun divarlarının qırılması nəticəsində, onun içində və xaricində olan təzyiqin təfavütü qəfildən bərabərləşdikdə, baş vermiş hesab olunur. Seyrəlmiş atmosfer şəraitində (vakuumda) əmələ gəlmiş zərərlər təmin olunmur. Yanma kamerasında baş vermiş partlayışlar nəticəsində daxili yanacaqlı mühərriklərə dəymiş zərər və daxili qaz təzyiqi nəticəsində elektrik açarlarının elementlərinə dəymiş zərər sığorta ilə təmin olunmur.

### 5.1.3. TƏYYARƏ VƏ DİGƏR HAVA APARATLARININ VƏ YA ONLARIN HİSSƏLƏRİNİN DÜŞMƏSİ

### 5.1.4. ZƏLZƏLƏ

**5.1.5. TUFAN VƏ QASIRĞA** (lakin açıq havada olan daşınan əmlaka, hasarlara və darvazalara dəyən zərərlər İSTİSNA olmaqla).

Tufan dedikdə Bofort şkalası üzrə gücü 8 baldan aşağı olmayan (yəni küləyin sürəti saatda 60 kilometrdən az olmayan) və hava şəraiti nəticəsində əmələ gələn hava axınları nəzərdə tutulur.

**5.1.6. DAŞQIN, SEL BASMASI** (lakin açıq havada olan daşınar əmlaka, hasarlara və darvazalara dəyən zərərlər İSTİSNA olmaqla)

**5.1.7. SIĞORTA OLUNMUŞ BİNALARIN İÇİNDƏ VƏ YA QONŞU BİNALARDA YERLƏŞƏN REZERVUAR VƏ BORULARDAN SIZMA VƏ YA ONLARIN PARTLAMASI NƏTİCƏSİNDƏ SU BASMASI.**

a) lakin aşağıdakı zərər və itkilər təmin olunmur:

(i) su borularının və ya rezervuarlarının təmiri, başqa yerə keçirilməsi və ya uzadılması nəticəsində baş vermiş zərər və itkilər,

(ii) 30 gün ərzində mütəmadi olaraq binaların boş olduğu zaman rezervuar və boruların partlaması, daşması və ya onlardan su sızması.

(iii) açıq havada yerləşən əmlaka dəymiş zərərlər,

(iv) istənilən sprinkler sisteminin və ya məişət məqsədindən başqa digər məqsədlər üçün istifadə edilmiş buxar qazanının partlaması və daşması nəticəsində dəymiş zərərlər.

b) rezervuar və boruların partlaması, daşması və onlardan su sızması birbaşa və ya dolayı olaraq aşağıdakıların nəticəsində əmələ gəldikdə dəymiş zərərlər təmin **olunmur:**

(i) Sürüşmə, torpaq çökməsi və ya qalxması,

(ii) Yanğın, ildırım vurması və ya 5.1.2. bəndi ilə nəzərdə tutulan partlayış.

**5.1.8. SIĞORTALIYA QARŞI YÖNƏLDİLMİŞ ÜÇÜNCÜ ŞƏXSLƏRİN QƏRƏZLİ, QANUNA ZİDD OLAN HƏRƏKƏTLƏRİ**, lakin dəymiş zərərin birbaşa və ya dolayı olaraq aşağıdakı hadisələrin nəticəsində baş verməsi halları istisna olmaqla:

(a) yanğın,

(b) oğurluq və ya oğurluğa cəhd,

(c) hər hansı kommersiya, sənaye və digər iş fəaliyyətinin bütovlüklə və ya qismən dayanması və ya ləngiməsi.

(d) Sığortalının (Faydalanan şəxsin) və ya onun işçilərinin hərəkətləri nəticəsində dəymiş zərərlər;

(e) müqavilə ilə digəri nəzərdə tutulmayıbsa pəncərələrin, aynaların, vitrinlərin və şüşədən istehsal olunmuş digər əşyaların sındırılması nəticəsində dəymiş zərərlər;

**5.1.9. SINDIRMAQLA OĞURLUQ VƏ YA OĞURLUĞA CƏHD.**
Lakin aşağıdakıların nəticəsində dəymiş zərərlər istisna olmaqla

(a) Sığoralının işçiləri və ya binanın sakinləri ilə əlbir olaraq törədilmiş oğurluq,

(b) açıq havada olan əmlakın oğurluğu,

(c) xüsusi sığorta müqaviləsi ilə sığortalanmış şüşələrin oğurluğu,

**SINDIRMAQLA OĞURLUQ VƏ YA OĞURLUĞA CƏHD** riski üzrə təminat sığortalanmış əmlakın oğurluğu və ya oğurluğa cəhd zamanı binalara, avadanlıqlara və ya qurğulara dəymiş zərəri daxil edir. Müqavilə ilə digəri nəzərdə tutulmayıbsa, bu zərərlər (yəni oğurluq və ya oğurluğa cəhd zamanı binalara, avadanlıqlar və ya qurğulara dəymiş zərərlər) üzrə təminatın maksimal həddi sığorta muqaviləsi ilə sığortalanmış və zərər çəkmiş binaların İçindəkiləri üzrə sığorta məbləğinin 5%-dən artıq ola bilməz.
Sığorta təminatı yalnız sığortalanmış əmlakın sığorta olunan ərazidə yerləşdiyi zaman qüvvədədir.

**5.1.10.SOYĞUNÇULUQ VƏ YA QULDURLUQ**

**5.1.11. YER SÜRÜŞMƏSİ, TORPAQ ÇÖKMƏSİ VƏ YA QALXMASI**, lakin aşağıdakı hadisələrin nəticəsində baş verən sürüşmə, torpaq çökməsi və ya qalxması İSTİSNA olmaq şərti ilə:

(a) binanın dağıdılması, tikilməsi, ekskavasiyası və ya təmir ilə əlaqədar işlərin aparılması,

(b) Sığorta şəhadətnaməsində göstərilən sığorta təminatının qüvvəyə minmə tarixindən əvvəl əmələ gəlmiş zərərlər,

(c) normal çökmə,

(d) parazitlər, amortizasiya (köhnəlmə), tədricən korlanma, paslanma, korroziya, gizli defektlər, özünəməxsus qüsurlar, yanlış dizayn, yanlış materiallar və ya qeyri-peşakar olan ustaların işi,

(e) sığortalanmış binaya zərər dəymədikdə, həyət sahələrinə, maşın dayanacaqlarına, yollara, trotuarlara, darvazalara və hasarlara dəymiş zərərlər,

(f) süni üsulla qurulmuş yer sahəsinin enməsi və ya hərəkətə gəlməsi,

(g) sahil və ya çay eroziyası,

(h) zəlzələ,

(i) həmin binaların ətrafında və ya altında aparılan yeraltı işlər və qazıntı işləri,

5.1.12. Sığorta təminatına, tərəflərin qarşılıqlı razılaşması əsasında və Şəhadətnamədə və ya sığorta müqaviləsinə qəbul edilmiş müvafiq əlavələrdə göstərilən risklərə göstərilməsi şərti ilə DİGƏR risklər də daxil edilə bilər.

## 5.2. ŞÜŞƏ SINMASI ÜZRƏ ƏLAVƏ TƏMİNAT

Bilavasitə sığorta müqaviləsində göstərilmiş risklər nəticəsində binaya zərərin dəyməsi ilə yanaşı binaların şüşədən olan tərkib hissəsinin sınması baş veridikdə sığortaçı əlavə olaraq sınmış şüşələrin dəyişdirilməsi üzrə xərclərini öz üzərinə götürür. Aşağıdakı hallar istisna edilir:

(a) bina üzrə aparılan təmir, dekorasiya, əlavə və düzəltmə işləri nəticəsində və ya şüşələrin dəyişdirilməsi və quraşdırılması zaman şüşələrin sınması,

(b) konstruksiyaların dağılması və köhnəlməsi nəticəsində şüşələrin sınması; Təminatın meyarı adi şüşə ilə əvəz edilmənin dəyərinə bərabərdir.

## 5.3 TİKİNTİ TULLANTILARININ TƏMİZLƏNMƏSİ ÜZRƏ ƏLAVƏ TƏMİNAT

Sığortaçı və Sığortalı arasında əldə edilmiş xüsusi razılığa əsasən, Sığorta Şəhadətnaməsində göstərilmiş sığorta məbləği(ləri) çərçivəsində, hazırki Qaydaların 4-cü bölməsində nəzərdə tutulan risklər nəticəsində bina və ya onun hissələrinin zədələnməsi ilə əlaqədar həyata keçirilmiş aşağıdakı tədbirlər üzrə xərclərin ödənilməsi təmin edilir:

1. tikinti tullantılarının təmizlənməsi,
2. sökmə və dağıtma, və/və ya
3. bərkitmə və ya dayağın vurulması.

Lakin, Sığortaçı aşağıdakılar üzrə xərcləri heç bir halda ödəmir:

1. binalar və onlara qonşu ərazilər istisna olmaqla digər ərazilərdən tullantıların yığışdırılması, və ya
2. bilavasitə və ya dolayı olaraq çirklənmə və zəhərlənmə nəticəsində əmələ gələn xərclər.

Bu müddəa hazırki Sığorta Qaydalarının digər şərtlərinin yerinə yetirilməsi şərti ilə tətbiq edilir.

## 6. BÖLMƏ 4-ə AİD XÜSUSİ ŞƏRTLƏR

Hazırki bölmə üzrə Sığortaçının məsuliyyətinin yaranması üçün aşağıdakı şərtlər Sığortalı tərəfindən yerinə yetirilməlidir, əks halda Sığortaçı dəymiş zərəri ödəmək öhdəliyindən azad olunur. Lakin, bu halda Sığortaçı bu Qaydaları bütövlükdə rədd edə bilməz.

### 6.1.1. TULLANTILARA GÜNDƏLİK NƏZARƏT

Bütün ticarət, tullantı və tör-töküntü materialları hər gün yığışdırılmalı, qablaşdırılmalı və tikililərin ərazisindən kənarlaşdırılmalıdır, və bütün neft və yağ tullantıları metal qablarda saxlanmalı və hər həftə ərazidən kənarlaşdırılmalıdır.

**6.1.2. YANĞIN SÖNDÜRMƏ CİHAZLARININ İSTİSMARI**

Odsöndürənlər və digər yanğın söndürmə cihazları Sığorta şəhadətnaməsində göstərilən sığorta təminatının qüvvədə olma müddəti ərzində Sığortalı tərəfindən tam işlək vəziyyətdə saxlanmalıdır. Lakin, Sığortaçıya məlum olmayan və ya onun nəzarətindən kənar olan səbəblər ucbatından yanğın söndürmə cihazlarının defektli olması bu sığorta təminatını qüvvədən salmır.

**6.1.3. SAKİNLƏR HAQDA MƏLUMATIN DƏRHAL VERİLMƏSİ**

Sığorta olunmuş binaların 30 gün ərzində mütəmadi olaraq boş qalması haqqında məlumat Sığortaçıya dərhal çatdırılmalıdır. Belə məlumatın daxil olmasından sonra Sığortaçı bu məlumatları nəzərə alaraq sığorta haqqının qaldırılması və ya hazırki Sığorta Qaydalarında dəyişikliklərin edilməsi hüququna malikdir.

**6.1.4. STELLAJ**

Hər hansı anbarın sahəsində saxlanılan mallar yerin səviyyəsindən 20 santimetr yüksəklikdə yerləşdirilməlidir.

**7. İŞ FƏALİYYƏTİ PROSSESİNİN DAYANMASININ SIĞORTASI**

Sığorta müddəti ərzində:

1. Sığorta Şəhadətnaməsinin maddi zərərdən sığortası bölməsində göstərilən sığorta risklərinin baş verməsi səbəbindən həmin bölmə üzrə sığorta olunmuş binalara/tikililərə zərər dəyməsi və/və ya

2. həmin risklərin baş verməsi nəticəsində qonşu və/və ya bitişik olan binaların zədələnməsi səbəbindən, maddi zərər bölməsi üzrə sığorta olunmuş binalara/tikililərə girişin/daxil olmanın məhdudlaşması nəticəsində sığortalının iş fəaliyyəti prossesi dayandıqda və bu (a) dövriyyənin azalmasına və / və ya (b) işin aparılması ilə bağlı əlavə xərclərin yaranmasına gətirib çıxararsa, Sığortaçı Sığortalının Ümumi Gəlirinin itkisini müvafiq sığorta məbləği(ləri) çərçivəsində aşağıdakı qaydada təmin edəcəkdir:

(a) Dövriyyənin azalması üzrə*: Ümumi gəlirin tarif dərəcisini standart dövriyyədən təminat müddəti üzrə olan dövriyyənin həcmi çıxıldıqdan sonra əldə edilmiş məbləğə vurmaqla alınmış məbləğ.

(b) İşin aparılması ilə bağlı əlavə xərclərin yaranması üzrə: (sığorta olunmamış daimi məsrəflər üzrə qeyd-şərt nəzərə alınaraq) sığorta hadisəsi nəticəsində təminat müddəti ərzində dövriyyənin azalmasının qarşısı alınması üçün zəruri və məntiqə uyğun olaraq çəkilmiş əlavə xərclər, hər halda bu xərclər üzrə ödəniş ümumi gəlirin tarif dərəcisinin qarşısı alınmış dövriyyənin azalması məbləğinə vurmaqla alınmış məbləğdən çox ola bilməz.

Ümumi gəlirə daxil olan və sığorta hadisəsi nəticəsində azalmış və ya çəkilməmiş xərclər təminat müddəti ərzində qənaət edilmiş məbləğ hesab edilir və bu məbləğ üzrə sığorta ödənişi həyata keçirilmir.

Bu bölmə üzrə sığorta məbləği ümumi gəlirin tarif dərəcəsini illik dövriyyənin məbləğinə (və ya maksimal təminat müddəti 12 aydan çox olduqda isə illik dövriyyənin mütənasib sürətdə artırılmış məbləğinə) vurmaqla alınmış məbləğdən az olarsa sığorta ödənişinin məbləği adı çəkilən məbləğlərin nisbətinə müvafiq sürətdə azaldılır.

**Qeyd:**

* Dövriyyənin azalması üzrə təminatın hesablanması düsturu:

$$\textbf{Dövriyyənin azalması üzrə təminat} = \text{Ümumi Gəlirin Tarif Dərəcəsi} \left\{ \text{standart dövriyyə} \;-\; \text{təminat müddəti üzrə olan dövriyyə} \right\}$$

**İSTİFADƏ OLUNAN TERMİNLƏR**

**Qeyd:** 1. Sığorta məbləği müəyyən edilərkən və sığorta ödənişi həyata keçirilərkən Əlavə Dəyər Vergisinin məbləği nəzərə alınmır və Əlavə Dəyər Vergisi üzrə heç bir ödəniş həyata keçirilmir.

2. Bu Qaydaların hazırki bölməsində istifadə olunan terminlər tətbiq edilərkən cari məsrəflər mühasibatına edilmiş düzəlişlər nəzərə alınmır.

**Sığorta hadisəsi**: Sığortalının iş fəaliyyəti ilə bağlı istifadə etdiyi əmlakın məhv olması və ya zədələnməsi.

**Təminat müddəti:** sığorta hadisəsinin baş verməsi anından başlayan və maksimal təminat müddətindən çox olmayan, davam etməsi ərzində Sığortalının iş fəaliyyətinin nəticələrinə sığorta hadisəsinin mənfi təsiri olan müddətdir.

**Maksimal təminat müddəti**: Sığorta Şəhadətnaməsinin «maksimal təminat müddəti» qrafasında göstərilən müddətdir.

**Dövriyyə**: Sığorta təminatının qüvvədə olduğu ərazidə həyata keçirilən iş fəaliyyəti ilə bağlı satılan mallar və ya göstərilən xidmətlər ürzə Sığortalıya ödənilmiş və ya ödəniləcək pul vasaitləri.

**Ümumi Gəlir:**

(i) dövriyyə həcminin, maliyyə ilinin sonuna olan mal qalığının və başa çatmamış istehsalın (işlərin) dəyərinin cəmindən

(ii) sığorta olunmayan işin aparılması ilə bağlı xərclərin məbləğinin, maliyyə ilinin əvvəlinə olan mal qalığının və başa çatmamış istehsalın (işlərin) dəyərinin cəmi çıxıldıqdın sonra əldə edilmiş məbləğdir.

**QEYD:** maliyyə ilinin sonuna olan mal qalığının məbləği, maliyyə ilinin əvvəlinə olan mal qalığının məbləği və başa çatmamış istehsalın (işlərin) dəyəri sığortalının adi mühasibat üsulları istifadə olunaraq, amortizasiya nəzərə alınmaqla hesablanmalıdır.

**Sığorta olunmayan, işin aparılması ilə bağlı xərclər:**

Bütün alınmalar, xammal, bütün güzəştlər, bütün nəqliyyat və daşınma xərcləri daxil olmaqla lakin bunlarla məhdudlaşmayaraq, dövriyyəyə mütənasib sürətdə azalan «dəyişən xərclər».

**QEYD**: Bu Qaydaların hazırki bölməsində istifadə olunan söz və ifadələr (əmək haqqından başqa) Sığortalının öz mühasibat sənədlərində istifadə etdiyi mənalarda başa düşülməlidir.

**Ümumi Gəlirin Tarif Dərəcəsi****: Sığorta hadisəsinin baş verdiyi ildən əvvəl olan bir maliyyə ili ərzində dövriyyədən əldə edilmiş ümumi gəlirin məbləğini dövriyyənin məbləğinə bölməklə hesablanır.

**İllik dövriyyə**: Sığorta hadisəsi anından əvvəlki 12 ay üzrə olan dövriyyə.

**Standart dövriyyə:** Sığorta hadisəsindən əvvəl olan on iki ay ərzində sığorta təminatı müddəti ilə üst-üstə düşən dövriyyə standart dövriyyə hesab olunur.

Sığorta hadisəsinin baş verib-verməməsindən asılı olmayaraq, Sığorta hadisəsinin baş vermə anından əvvəl və ya sonra əmələ gəlmiş və biznesin tendensiyasına təsir göstərə biləcək dəyişikliklərin və ya hər hansı bir şəraitin nəzərə alınması üçün zəruri olan düzəlişlər göstərilən anlayışlara edilməlidir. Göstərilən anlayışlara (məbləğlərə) bu üsulla düzəlişlərin edilməsi, Sığorta hadisəsindən sonra müvafiq müddət ərzində, Sığorta hadisəsinin baş verməməsi təqdirində əldə oluna biləcək nəticələrin mümkün qədər əks olunması məqsədi ilə edilir.

**Qeyd:**

** Ümumi Gəlirin Tarif Dərəcəsinin hesablanması düsturu:

$$\textbf{Ümumi Gəlirin Tarif Dərəcəsi} = \frac{\text{ümumi gəlirin məbləği}}{\text{dövriyyənin məbləği}}$$

Sığorta hadisəsinin baş verdiyi ildən əvvəl olan bir maliyyə ili üzrə

**Alternativ fəaliyyət haqqında qeyd-şərt:** Əgər təminat müddəti ərzində sığorta təminatının qüvvədə olduğu ərazidən başqa digər yerlərdə Sığorta Şəhadətnaməsində göstərilən iş fəaliyyəti ilə bağlı Sığortalı və ya onun xeyrinə digər şəxslər tərəfindən mallar satıldıqda və ya xidmətlər göstərildikdə bu alternativ fəaliyyət ilə bağlı əldə edilmiş qazanc təmin olunan müddət üzrə dövriyyə hesablanarkən nəzərə alınmalıdır.

**Sığorta olunmamış daimi məsrəflər üzrə qeyd-şərt:** əgər hər hansı daimi məsrəf sığorta müqaviləsi ilə sığorta olunmayıbsa (və Ümumi Gəlirin məbləği hesablanarkən nəzərə alınmayıbsa) İşin Aparılması İlə Bağlı Əlavə Xərclərin Yaranması təminatı üzrə ödəniləcək məbləğ hesablanarkən əlavə xərclər yalnız Ümumi Gəlirin Sığorta olunmamış daimi məsrəflər məbləğinin Ümumi gəlirlə cəminin nisbətinə bərabər proporsiyada ödəniləcək.

## 8. BÖLMƏ 7-ya AİD XÜSUSİ ŞƏRTLƏR

8.1. Sığortalı iş fəaliyyətinin dayanması nəticəsində yaranabiləcək itkilərin baş verməməsi və ya minimuma endirilməsi üçün həmin dayanmanın müddətinin azalması məqsədi ilə ağlabatan və zəruri olan bütün tədbirləri görməli, və bununla əlaqədar olaraq ya iş fəaliyyətini hər hansı başqa ərazilərə köçürməli və ya digər tədbirləri görməlidir.

8.2. Yuxarıda göstərilən tədbirlərin görülməsinə çəkilmiş xərclər üzrə sığorta ödənişi həyata keçirilərkən bu xərclər üzrə məbləğin yalnız qarşısı alınmış Ümumi Gəlir itkisindən çox olmaması şərti ilə təmin olunacaqdır.

8.3. Ümumi Gəlirə daxil olan işin aparılması ilə bağlı xərclərin zərər nəticəsində azalması Sığortaçının sığorta ödənişi həyata keçirmək məsuliyyətini müvafiq məbləğdə azaldır.

8.4. Bu bölmə üzrə Sığortaçı tərəfindən ödəniləcək məbləğ(lər) hesablanarkən «ilkin dəyərlə aparılan mühasibat uçotu» prinsipləri əldə rəhbər tutulur.

8.5. Sığorta hadisəsi haqqında tam məlumat təminat müddəti bitdikdən sonra bir aydan gec olmayaraq Sığortaçıya təqdim olunmalıdır.

8.6. Təminat müddətinin bitməsi günü - ya iş fəaliyyətinin normal qaydasına (yəni baş vermiş zərərdən əvvəl olan vəziyyətə) qaytarılması günü ya da ki, sığorta şəhadətnaməsində göstərilən maksimal təminat müddətinin son günüdür, hər halda bu iki gündən hansı birinci olarsa.

8.7. Sığortaçıya təqdim olunacaq sübutlar – mühasibat kitabları, digər işin aparılması ilə bağlı kitablar, ödənişi təsdiq edən sənədlər, hesablar, balans hesabatı və iddianın araşdırılması və ya yoxlanılması üçün Sığortaçı tərəfindən tələb olunan digər sənədlər, dəlillər, məlumatlar və izahlardır.

8.8. Hazırki bölmə üzrə Sığortaçının məsuliyyətinin yaranması üçün aşağıdakı şərtlər mütləq mövcud olmalıdır:

a) **İş fəaliyyətinin dayanması sığortalanmış əmlaka zərərin dəyməsi nəticəsində baş verdikdə:** Sığortaçı hazırkı qaydaların 4-cü bölməsi üzrə, həmin bölməyə aid olan şərt və istisnalara müvafiq olaraq, sığorta hadisəsi nəticəsində sığorta olunmuş əmlaka dəymiş itki və zərərlərə dair məsuliyyəti öz üzərinə götürmüş olsun;

b) **İş fəaliyyətinin dayanması qonşu və/və ya bitişik olan binaların zədələnməsi səbəbindən, sığorta olunmuş binalara/tikililərə girişin/daxil olmanın məhdudlaşması nəticəsində baş verdikdə:** sığorta olunmuş binalara/tikililərə girişin/daxil olmanın məhdudlaşmasına səbəb olan zədələnmiş qonşu bina və tikililərlə baş vermiş hadisə hazırkı qaydaların 4-cü bölməsinin şərt və istisnalarına müvafiq olaraq sığorta hadisəsi hesab oluna bilsin.

Hazırkı qaydaların 4-cü bölməsində göstərilən xüsusi istisnalar müvafiq hallarda və qaydada hazırkı bölməyə aid olunur.

## 9. ÜMUMİ İSTİSNALAR

Bu Sığorta Qaydaları ilə aşağıdakılar üzrə (əgər əlavə razılaşma yoxdursa) təminat verilmir:

9.1. Bu Sığorta Qaydaları ilə aşağıdakılar üzrə təminat verilmir və ödəniş həyata keçirilmir:

9.1.1. Sığorta təminatının əhatə ərazisindən kənarda baş verən hadisələr;

9.1.2. Yeraltı suların səviyyəsinin dəyişməsi nəticəsində sığortalanmış əmlakın məhv olması və ya zədələnməsi.

9.1.3. Şaxta nəticəsində dəymiş hər hansı itki, zərər və ya məhv olma.

9.1.4. Açıq qalmış qapı və/və ya pəncərələrdən sığortalanmış bina və ərazilərə yağışın, qarın, dolu və ya palçığın dolması nəticəsində baş verən zərərlər.

9.1.5. Dolayı itki, o cümlədən zəhmət haqqının itirilməsi və/və ya ləngitmə nəticəsində baş vermiş mənfəətin itirilməsi, bazarın itirilməsi və hər hansı digər dolayı itki və zərərlər.

9.1.6. Valyuta mübadiləsi kursunun fərqi.

9.1.7. Sığortalının və ya Faydalanan şəxsin kobud ehtiyyatsızlığı və ya qərəzli hərəkətləri nəticəsində baş vermiş hadisələr.

**Qeyd:** Hazırkı Qaydalara müvafiq olaraq hər hansı şəxsin etdiyi hərəkət aşağıdakı hallarda qərəzli edilmiş hesab olunur: şəxs öz hərəkətinin (hərəkətsizliyinin) təhlükəli olduğunu anladıqda, sığorta hadisəsinin baş verməsi ehtimalını və ya qaçılmazlığını qabaqcadan bildikdə və onun baş verməsini arzuladıqda, və ya sığorta hadisəsinin baş verməsinə yol verdikdə və öz hərəkətlərinin (hərəkətsizliyinin) mümkün nəticələrinə laqeyd surətdə yanaşdıqda.

9.1.8. Sığortalının və ya Faydalanan şəxsin alkoqolun, toksik və ya narkotik maddələrin təsiri altında etdiyi hərəkət (hərəkətsizlik) nəticəsində baş vermiş hadisələr.

9.1.9. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, ərazinin sığortalanmış əmlakın qırıntı və ya qalıqlarından təmizlənməsi üçün çəkilmiş xərclər.

9.1.10. Hər hansı peşəkar və ya könüllü yanğınsöndürmə briqadaların və ya qanuna, öz nizamnaməsinə və ya digər normativ-hüquqi aktlara müvafiq olaraq yanğın söndürmə tədbirlərini və digər zərərlərin qarşısının alınması və ya azalması üzrə tədbirləri həyata keçirməyi borclu olan digər təşkilatların xidmətlərinin ödənilməsi ilə bağlı xərclər.

9.1.11. Binaların, tikililərin və ya onların hissələrinin dağılması sığorta hadisəsi nəticəsində baş vermədiyi halda, bu cür dağılma ilə əlaqədar yaranmış zərər və xərclər.

9.1.12. Sığortalanmış bina və tikililərin uzun müddət ərzində istismar olunmasından köhnəlib çürüməsi, bərbad halda olması və ya zədələnməsi nəticəsində yaranmış zərərlər;

9.1.13. Sığortalanmış əmlakın yenidən qurulması, təmiri və ya ərazisində tikinti işlərinin aparılması nəticəsində dəymiş zərərlər.

9.1.14. Sığortalanmış əmlak ilə əlaqəli vergilər, rüsumlar və ya kommunal ödənişlərlə bağlı xərclər.

9.1.15. Sığortalı və ya Faydalanan şəxs tərəfindən yanğın təhlükəsizliyi qaydalarına və ya sığortalanmış əmlakın zədələnməsinə səbəb olan material və əşyaların təhlükəsiz istifadə olunması və saxlanması qaydalarına əməl edilməməsi nəticəsində sığortalanmış əmlakın zədələnməsi və ya məhv olması.

9.1.16. Əmlakın koroziya, köhnəlmə, çürümə nəticəsində, ayrıca predmetlərin isə öz-özünə alışıb yanması və ya digər təbii xüsusiyyətləri ilə əlaqədar məhv olması və ya zədələnməsi;

9.1.17. Elektrik cihaz və avadanlıqların elektrik xətlərindəki nasazlıq: qısa qapanma, cərəyanın dəyişməsi və s. səbəblərdən xarab olması, bilavasitə mexaniki nasazlıq və ya sınma, elektrik cərəyanının pozulması, klapanların və qızma lampalarının və onlara oxşar cihazların partlaması, avadanlıqları işə salma ilə bağlı qapanma nəticəsində zərərin dəyməsi və ya yanıb xarab olması, elektrik enerjisinin gərginliyinin həddindən artıq yüksəlməsi və ya düşməsi nəticəsində baş vermiş zərərlər, həddindən artıq qızdırılma nəticəsində məhv olmuş və ya zədələnmiş cihaz və avadanlıqlar, lakin bu hadisələrin nəticəsində baş vermiş yanğın, partlayış və ya digər sığorta olunmuş müvafiq risklər səbəbindən sığorta olunmuş bina və tikililərə və / və ya onların içində yerləşən sığorta olunmuş digər əmlaka dəymiş zərərlərə dair təminat verilir.

9.1.18. Mənəvi zərərin təmin olunması ilə bağlı irəli sürülmüş iddialar;

9.1.19. Kompüterlərdə saxlanılan məlumatların və digər məlumat bazalarının elektron və ya çap edilmiş variantların zədələnməsi və ya itməsi

**9.2. Sığortaçı aşağıdakıların nəticəsində baş verən hadisələr üzrə heç bir məsuliyyət daşımır:**

9.2.1. Nüvə partlayışının, radiasiyanın və ya radioaktiv zəhərlənmənin təsiri.

9.2.2. Ətraf mühitin çirklənməsi və zəhərlənməsi.

9.2.3. Müharibə (elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibəsi, hərbi əməliyyatlar, təcavüz, istila, işğal, düşmənçilik aktları, xarici düşmənlərin aksiyaları, üsyan, qiyam, tətil, inqilab, ictimai ixtişaşlar, xalq hərəkatı, çevriliş, silahlı yolla hakimiyyətin qəsb edilməsi, terrorizm, sabotaj və bunların nəticələri;

9.2.4. Dövlət orqanlarının sərəncamı ilə və ya hərbi ya da mülki hakimiyyət və siyasi təşkilatlar tərəfindən siyasi tədbirlərin görülməsi nəticəsində sığortalanmış əmlakın müsadirə, rekvizisiya, həbs, məhv edilməsi və ya milliləşdirilməsi.

9.2.5. Sığorta müqaviləsinin qüvvədə olma müddətində baş vermiş, lakin səbəbi müqavilənin qüvvəyə minmə tarixindən əvvəl yaranmış hadisələr.

9.2.6. Səs və ya səsin sürətindən yüksək sürətlə hərəkət edən təyyarələr və digər hava apparatları ilə bilavasitə və ya dolayı olaraq yaranan təzyiq dalğaları nəticəsində əmələ gəlmiş itki, məhv olma və ya digər zərərlər.

9.2.7. Sığortalıya məxsus olan pullar (aşağıdakılar daxil olmaqla, lakin, onlarla məhdudlaşmayaraq: nağd pul, banknotlar, hər hansı valyuta, çeklər, poçt və pul sifarişləri, poçt ştampları və markaları, vauçerlər, səhmlər, qiymətli kağızlar, istiqrazlar).

## 10. SIĞORTA MƏBLƏĞİ

10.1. Sığorta məbləği sığorta müqaviləsinə uyğun olaraq sığorta obyektinin sığortalandığı, Sığortaçının öhdəliklərinin son (maksimal) həddi olan və əsasında sığorta haqqı hesablanmalı olan məbləğdir. Sığorta dəyərinin müəyyənləşdirilməsi zamanı tərəflər qüvvədə olan qanunvericiliyə və aşağıdakı müddəalara əsaslanmalıdırlar.

10.2. Sığorta məbləği sığorta müqaviləsi bağlanan zaman sığorta olunacaq əmlakın mövcud olan bazar qiymətini əsas götürərək tam dəyəri (sığorta dəyəri) məbləğində müəyyən edilir.

10.3. Sığorta məbləği sığortalanmış əmlakın sığorta dəyərindən artıq ola bilməz və Sığortaçı sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsi üzrə heç bir məsuliyyət daşımır və ödəniş həyata keçirmir.

10.4. Əmlakın bazar qiyməti əmlakın rəqabət şəraitində, satıcı və alıcının əmlak barədə tam məlumatı olması şərti ilə və razılaşmanın qiymətinə hər hansı fövqəladə hadisələrin təsiri olmadıqda, həmin əmlakın satılması üçün mümkün olan qiymətdir.

10.5. Məhsullar, xammal, yeraltı sərvətlər və bu kimi digər əmlakın sığorta dəyəri aşağıdakı üzrə müəyyən edilir:

a) Sığortalı tərəfindən istehsal edilən və istehsalatı hələ də davam edən məhsullar üzrə,

b) satış üçün nəzərdə tutulmuş mal ehtiyatları və ya hazır məhsullar üzrə,

c) xammal üzrə,

d) yeraltı sərvətlər üzrə

Sığorta dəyəri yenidən istehsal edilməsinə və ya sığortalanmış əmlak ilə eyni növ və keyfiyyətdə olan əmlakın alınmasına xərclənmiş məbləğ (malların alış dəyərinin, daşınma xərclərinin, müvafiq hallarda gömrük xərclərinin və bu kimi digər xərclərin cəminə bərabərdir) sayılır. Hər-halda daha kiçik (az) olan məbləğ əsas sayılır.

10.6. Sığorta məbləğinin sığorta dəyərinə uyğunluğu tərəflərin qarşılıqlı razılığı, müvafiq sənədlər və ya ekspert rəyi əsasında müqavilədə göstərilən hər sığortalanmış obyekt və ya obyektlər qrupu üzrə müəyyən edilir.

10.7. Müqavilə ilə digəri nəzərdə tutulmayıbsa, əmlakın müstəqil qiymətləndirilməsi üzrə xərclər onun aparılmasını tələb etmiş tərəf ilə ödənilir.

10.8. Sığortalı (Faydalanan şəxs) sığorta müddəti ərzində əmlakın tərkibində dəyişikliklərin baş verməsi nəticəsində sığortalanmış əmlakın dəyərinin artması haqqında Sığortaçıya dərhal xəbər verməlidir. Bu halda, sığorta haqqı və sığorta məbləği üzrə sığorta müqaviləsində dəyişikliklər edilir və Sığortaçıya müvafiq bildirişin daxil olması tarixindən sığorta haqqı yenidən hesablanır. Əmlakın dəyərinin artması haqda bildirişin verilməməsi halında bu Qaydalar ilə müəyyən edilmiş qismən sığorta haqqında müddəalar tətbiq edilir.

10.9. Sığortaçının və Sığortalının razılığına əsasən, mal ehtiyatları üçün sığorta məbləği bu malların təyin edilmiş günə qalığının orta dəyərinə əsasən hesablana bilər. Sığortalı orta qalıq barəsində yazılı olaraq və müqavilədə müəyyən edilmiş qaydada və dövriliklə Sığortaçıya məlumat verməlidir.

10.10. Sığortalıya (Faydalanan şəxsə) sığorta ödənişinin verilməsi halında, müvafiq sığorta məbləği sığorta ödənişinin həcmində azalmış hesab edilir. Sığorta məbləği sığorta hadisəsinin baş verməsi günündən azalmış hesab edilir. Sığorta ödənişi həyata keçirildikdən sonra Sığortalı əlavə sığorta haqqı ödəyərək sığorta məbləğini bərpa edə bilər.

## 11. ŞƏRTSİZ AZADOLMA

Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda həmin məbləğ hər bir halda tətbiq edilir. Azadolma sığortalının və sığortaçının razılığı əsasında təyin edilir, Sığorta Şəhadətnaməsində və/və ya hazırkı Qaydalarda və/və ya sığorta müqaviləsinə qəbul edilmiş Əlavələrdə göstərilir, hər bir sığorta hadisəsi üzrə «Qismən sığorta haqqında şərtin» tətbiq olunmasından sonra tətbiq edilir.
Bir neçə sığorta hadisələrinin baş verdiyi halda və müqavilə ilə digər şərtlər nəzərdə tutulmayıbsa, azadolmanın məbləği hər sığorta ödənişindən tutulur.

## 12. SIĞORTA HAQQI

12.1. Sığorta haqqı Sığortalı tərəfindən təqdim edilmiş məlumat əsasında Sığortçı tərəfindən hesablanır və Sığorta Şəhadətnaməsində və ya sığorta müqaviləsinə qəbul edilmiş Əlavələrdə göstərilir.

12.2. Sığorta haqqı Sığortalı tərəfindən Sığortaçının təqdim etdiyi hesab və ya sığorta haqqının məbləği və ödənilmə qaydası barədə məlumatı özündə əks edən digər sənəd alındıqdan sonra ödənilir. Sığorta haqqı birdəfəlik və ya, tərəflərin razılaşmasına əsasən, hissə-hissə, sığorta müqaviləsinə qəbul edilmiş Əlavədə qeyd olunan ödənişlər cədvəlinə müvafiq olaraq ödənilə bilər.

12.3. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, nağdsız haqq-hesab zamanı sığorta haqqı Sığortalı tərəfindən tam məbləğdə, sığorta haqqı hissə-hissə ödənilirsə sığorta haqqının birinci ödənişi Sığortaçının təqdim etdiyi hesabın şərtlərinə müvafiq olaraq Sığortaçının bank hesabına köçürülməsi yolu ilə ödənilir.

12.4. Sığorta haqqının ödənilməsi günü nağdsız haqq-hesab zamanı pul vəsaitlərinin Sığortaçının hesabına daxil olduğu gün hesab olunur.

12.5. Sığorta haqqı və ya onun birinci hissəsi Sığortaçı tərəfindən təqdim olunmuş hesabda və ya sığorta haqqının məbləği və ödənilmə qaydası barədə məlumatı özündə əks edən digər sənəddə göstərilmiş müddət ərzində ödənilmədikdə, Sığortaçı sığorta müqaviləsindən imtina etmək və ya Sığortalı üçün əlavə ödəmə müddətinin təyin edilməsi hüququna malikdir. Əgər sığorta hadisəsinin baş verməsi günündə sığorta haqqı və ya onun birinci hissəsi müqavilənin şərtlərinə uyğun hələ də ödənilməyibsə, Sığortaçı öz öhdəliklərindən azad edilir.

12.6. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 12.7-ci maddəsinin tələbini nəzərə alaraq yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

12.7. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

12.8. Sığortalının sığorta haqqını ödəməməsi səbəbindən Sığortaçı tərəfindən sığorta müqaviləsinin ləğv edilməsi, Sığortalını Sığortaçıya, onun öz öhdəliklərini yerinə yetirdiyi müddəti üzrə, sığorta haqqının ödənilməli olan hissəsinin ödəməsindən azad etmir.

## 13. SIĞORTA MÜQAVİLƏSİ

13.1 Sığorta müqaviləsi Sığortaçı ilə Sığortalı arasında yazılı formada bağlanan, Sığortalının ödədiyi razılaşdırılmış sığorta haqqı müqabilində sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsində göstərilən sığorta məbləğindən çox olmaması şərti ilə, dəymiş real zərərin əvəzinin Sığortaçı tərəfindən Sığortalıya (Faydalanan şəxsə) ödənilməsini nəzərdə tutan sazişdir.

13.2. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta müqaviləsi yalnız Azərbaycan Respublikasının ərazisində yerləşən daşınmaz əmlaka və ya Azərbaycan Respublikasının rəsmi reyestrində üzərində mülkiyyət hüquqları qeydə alınan daşınan əmlaka dair bağlanıla bilər.

## 14. SIĞORTA MÜQAVİLƏSİNİN FORMASI

Sığorta müqaviləsinin tərəflərin sayından asılı olaraq müqavilə tələb olunan sayda, Azərbaycan dilində və hər tərəf üçün bir nüsxədə tərtib olunur. Nüsxələr eyni hüquqi qüvvəyə malikdir. Sığorta müqaviləsi hər hansı xarici dilə tərcümə olunduğu halda onun mətninin təsvir edilməsi üçün Azərbaycan dilindəki mətn əsas götürülməlidir.

## 15. SIĞORTA TƏMİNATININ ƏHATƏ ƏRAZİSİ

15.1. Sığorta müqaviləsi ilə digər şərtlər nəzərdə tutulmayıbsa, sığorta təminatı Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

15.2. Sığorta təminatı yalnız sığorta təminatının qüvvədə olduğu yer üzrə verilir. Sığorta təminatının qüvvədə olduğu yerin ünvanı sığorta müqaviləsində göstərilir.

15.3. Sığortalanmış əmlak – bina və tikililər, binaların daxilində mənzillər, otaqlar və torpaq sahələri sığorta təminatının qüvvədə olduğu yer sayıla bilər.

15.4. Sığorta müqaviləsinin qüvvədə oluğu müddət ərzində hər hansı inzibati-ərazi vahidinin və ya rayonun ərazisində hərbi əməliyyatlar aparılarsa (müharibənin elan edilib-edilməməsindən asılı olmayaraq) sığorta təminatı həmin ərazilərdə heç bir şərtlə qüvvədə olmuş hesab edilə bilməz.

15.5. Sığortalı yeni sahələri əldə etdiyi və ya yeni binaları tikdiyi təqdirdə bu məlumatı Sığortaçıya bildirməlidir. Əks halda, bu yerlər sığorta təminatının qüvvədə olduğu ərazi sayıla bilməz.

15.6. Sığortalanmış əmlak sığorta təminatının qüvvədə olduğu ərazini tərk etdikdə sığorta müqaviləsi üzrə verilən təminat həmin əmlaka dair qüvvədən düşmüş hesab olunur.

## 16. SIĞORTA MÜDDƏTİ

16.1. Sığorta təminatının qüvvədə olma müddəti tərəflərin razılığı ilə sığorta müqaviləsində müəyyənləşdirilir və «sığorta müddəti» adlandırılır. Sığorta müqaviləsi Sığorta Şəhadətnaməsində göstərilmiş sığortanın qüvvəyə minmə tarixində Bakı vaxtı ilə saat 24.00-da qüvvəyə minmiş hesab edilir, və həmin Şəhadətnamədə göstərilmiş sığortanın qüvvədən düşmə tarixində Bakı vaxtı ilə saat 24.00-da qüvvədən düşmüş hesab edilir.

16.2. Sığortaçı sığorta müddətindən əvvəl baş vermiş hadisələr nəticəsində yaranan zərərləri ödəmir.

## 17. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLMƏSİ

17.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

17.1.1. sığorta obyekti artıq mövcud olmadıqda

17.1.2. qanunvericiliklə nəzərdə tutulmuş qaydada Sığortalı - hüquqi şəxs ləğv edildikdə və ya fiziki şəxs vəfat etdikdə (o halda ki vərəsəsi olmasın);

17.1.3. Sığortaçı Sığortalı qarşısında öz öhdəliklərini tamamilə yerinə yetirdikdə;

17.1.4. Sığortalı sığorta haqqını müqavilədə və qanunvericiliklə müəyyən edilən qaydada ödəmədikdə;

17.1.5. sığorta müqaviləsinin qüvvədə olma müddəti bitdikdə;

17.1.6. sığorta marağı artıq mövcud olmadıqda

17.1.7. sığortalanmış əmlak özgəninkiləşdirilərkən Sığortaçı Sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən Sığortaçı Sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülküyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə Sığortalı dəyişdirilə bilər;

17.1.8. məhkəmə sığorta müqaviləsinin etibarsız olduğu barədə qərar verdikdə;

17.1.9. qanunvericiliklə nəzərdə tutulmuş qaydada Sığortaçı ləğv edildikdə;

17.1.10. sığorta müqaviləsi qüvvədə olduğu dövrdə Sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə və yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa

17.1.11. sığorta müqaviləsinin və hazırki Qaydaların müddəa və şərtləri yerinə yetirilmədikdə;

17.1.12. tərəflərin razılaşmasına əsasən;

17.1.13. qanunvericiliklə və sığorta müqaviləsi ilə nəzərdə tutulmuş digər hallarda.

17.2. Sığorta hadisənin baş vermə ehtimalı itdikdə və sığorta riskinin mövcudluğu sığorta hadisəsindən fərqli digər səbəblər ucbatından bitdiyi zamanı sığorta müqaviləsi dərhal qüvvədən düşür. Sığorta müqaviləsinin bu bənddə göstərilmiş səbəblər ucbatından vaxtından əvvəl qüvvədən düşməsi zamanı Sığortaçı, sığortanın qüvvədə olması müddəti üzrə, proporsional sürətdə hesablanmış sığorta haqqının hissəsini özündə saxlaya və ya tələb edə bilər.

17.3. Sığorta müqaviləsinə həm Sığortaçının, həm də Sığortalının 30 gün əvvəl qarşı tərəfə yazılı şəkildə xəbərdarlıq verməsi yolu ilə vaxtından əvvəl xitam verilə bilər. Yazılı xəbərdarlıq tərəflərin müqavilədə göstərilən ünvanlarına göndərilməlidir.

17.4. Tərəflər müqaviləyə xitam verməzdən əvvəl müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərini tam yerinə yetirməlidilər.

## 18. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLDİKDƏ SIĞORTA HAQQININ HESABLANMASI

18.1. Sığorta müqaviləsinə Sığortalının tələbi ilə xitam verildikdə, Sığortaçı həmin müqavilə üzrə işlərin aparılmasına çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqqını ona qaytarır; əgər bu tələb Sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa Sığortaçı sığorta haqlarını bütünlüklə Sığortalıya qaytarır.

18.2. Sığorta müqaviləsinə Sığortaçının tələbi ilə xitam verildikdə, Sığortaçı Sığortalının sığorta haqlarını bütünlükdə ona qaytarır; əgər bu tələb Sığortalının sığorta qaydalarını yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı həmin müqavilə üzrə işlərin aparılmasına çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqqını ona qaytarır

18.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı Sığortalıya qaytarılmır.

18.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 18.1-ci və 18.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## 19. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

### 19.1. Sığortaçının vəzifələri:

19.1.1. Sığortalıya sığortaçı tərəfindən müəyyən edilmiş qaydada tərtib olunmuş sığorta müqaviləsini vermək və sığortalını sığortanın şərtləri ilə tanış etmək;

19.1.2. Sığorta hadisəsinin baş verdiyi halda müqavilə ilə müəyyən edilmiş müddət ərzində və sığorta məbləği çərçivəsində zərərləri ödəmək;

19.1.3. Sığortalı tərəfindən sığorta riskinin baş verməsi ehtimalını azaldan və dəyə biləcək zərərin baş vermə riskini aşağı salan tədbirlərin həyata keçirilməsindən sonra, Sığortalının məlumatına əsasən həmin halları nəzərə alaraq müqavilənin şərtlərinə müvafiq dəyişiklikləri etmək;

19.1.4. Azərbaycan Respublikasının qanunvericiliyində göstərilmiş halları istisna etməklə, Sığortalı və onun maddi durumu haqda məlumatı yaymamaq;

19.1.5. Sığortalı tələb etdikdə, sığorta şəhadətnaməsini və sığortanı təsdiqləyən digər sənədlərin surətini təqdim etmək.

19.1.6. Sığorta müqaviləsi və qanunvericiliklə nəzərdə tutulan digər öhdəliklərini yerinə yetirmək.

**19. 2. Sığortaçının hüquqları:**

19.2.1. Ərizə formasında göstərilən əmlaka baxış keçirmək, əmlakın vəziyyəti və istifadə olunması qaydası ilə və müvafiq sənədlərlə tanış olmaq;

19.2.2. Sığortalı (Faydalanan şəxs) tərəfindən ona təqdim edilmiş məlumatların doğruluğunu yoxlamaq. Sığorta məbləğinə və riskin dərəcəsinin ölçülməsinə və dəyə biləcək zərərin miqdarına təsir göstərə biləcək məlumatının Sığortalı tərəfindən qərəzlə təhrif edilməsi və ya gizlədilməsi halında, sığorta müqaviləsinin ləğv edilməsini və ya onun etibarsız hesab edilməsini tələb etmək;

19.2.3. Sığorta hadisəsi ilə əlaqədar Sığortalının maraqlarını məhkəmədə təmsil etmək və ya başqa üsulla onun hüquqi müdafiəsini həyata keçirmək;

19.2.4. Qanunvericilikdə və sığorta müqaviləsində göstərilmiş şərtlərə əsasən sığorta ödənişindən imtina etmək;

19.2.5. Sığortalanmış riskin dərəcəsinin artması halında sığorta müqaviləsi şərtlərini dəyişmək və Sığortalıdan əlavə sığorta haqqının ödənilməsini tələb etmək;

19.2.6. Sığortalının sığorta müqaviləsinin tələblərinə və hazırkı Qaydaların şərtlərinə əməl etməsini yoxlamaq.

**19.3. Sığortalının vəzifələri:**

19.3.1. Sığorta olunan əmlaka baxışın keçirilməsini təmin etmək;

19.3.2. Ərizə formasında və sığorta müqaviləsinin bağlanması zamanı sığorta riskinin ölçülməsi üçün əhəmiyyətli olan bildiyi bütün məlumatları, bu sahədə digər qüvvədə olan sığorta müqavilələr və sığorta riskinin dərəcəsində hər hansı bir dəyişiliklər barədə sığortaçıya məlumat vermək. Sığortalı sığortaçıdan riskin dərəcəsinə təsir göstərə biləcək məlumatları gizlədibsə və ya sığortaçının riskin sığortalanması üzrə qərarına təsir edə biləcək faktlar üzrə yanlış məlumat veribsə, belə halda həmin müqavilə qüvvəsi olmayan hesab edilir və iddia üzrə heç bir ödəniş verilmir.

19.3.3. sığorta hadisəsinin baş verməməsi üçün bütün mümkün olan və məqsədəuyğun tədbirləri görmək və sığortaçının sığorta riskinin azalmasına yönəldilmiş bütün tövsiyə və məsləhətlərini yerinə yetirmək;

19.3.4. sığorta müqaviləsi ilə müəyyən edilmiş məbləğdə və qaydada sığorta haqqını ödəmək.

19.3.5. Əgər Sığortalını (Faydalanan şəxsi) hazırkı Qaydalara və ya qanunvericiliyə əsasən sığorta ödənişini almaq hüququndan məhrum edən səbəb aşkar olunarsa, sığorta müqaviləsinə müvafiq olaraq alınmış sığorta ödənişini (və ya onun müvafiq hissəsini) Sığortaçıya qaytarmaq;

19.3.6. Sığorta müqaviləsi ilə nəzərdə tutulmuş digər öhdəliklərini yerinə yetirmək.

**19.4. Sığortalının hüquqları:**

19.4.1. Sığorta hadisələrinin baş verməsinin qarşısını almaq və hadisələrin nəticələrini azaltmaq üçün lazımi olan məlumatı və məsləhətləri sığortaçıdan almaq;

19.4.2. riskin azalması üzrə tədbirlərin keçirilməsi zamanı sığortaçıdan həmin halları nəzərə almaqla sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini tələb etmək;

19.4.3. sığorta səhadətnaməsini itirdiyi halda onun dublikatını almaq.

19.5. Sığorta müqaviləsi ilə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər öhdəliklər də müəyyən edilə bilər.

## 20. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ

20.1. Sığorta ödənişi yalnız sığorta müqaviləsi ilə nəzərdə tutulmuş hadisələrin nəticəsində dəymiş zərərin səbəbi və miqdarı müəyyən edildikdən sonra həyata keçirilə bilər.

20.2. Sığorta müqaviləsi ilə nəzərdə tutulmuş sığorta hadisəsi baş verdikdə Sığortalı (Faydalanan şəxs) aşağıdakıları etməyə borcludur:

20.2.1. Baş vermiş hadisə barədə dərhal müvafiq səlahiyyətli orqanları məlumatlandırmaq, o cümlədən aşağıda göstərilən hadisələr barədə qeyd olunmuş orqanlara xəbər verməlidir:

- Sığortalıya qarşı yönəldilmiş üçüncü şəxslərin qərəzli, qanuna zidd olan hərəkətləri, sındırmaqla oğurluq, soyğunçuluq, quldurluq – polis orqanlarına
- yanğın – yanğın nəzarəti orqanlarına
- partlayış və ya su basma – müvafiq qəza və kommunal xidmətlərinə

20.2.2. Sığorta hadisəsi baş verdikdə dərhal, lakin hər halda 3 gündən gec olmayaraq hadisənin baş verməsi haqqında Sığortaçıya (və ya onun nümayəndəsinə) məlumat vermək, və Sığortaçı (onun nümayəndəsi) tərəfindən verilən bütün göstərişlərə əməl etmək.

20.2.3. Baş vermiş hədisənin səbəbləri, nəticələri, xarakteri və dəymiş zərərərin miqdarı və xarakteri, o cümlədən hadisə ilə əlaqəli şəxslər barədə bütün məlumatları yazılı şəkildə, və müvafiq səlahiyyətli orqanlar tərəfindən verilmiş hadisənin baş verməsini və həcmini təsdiq edən sənədləri Sığortaçıya təqdim etmək (tələb olunan sənədlərin tam siyahısı hadisə yerinə baxış keçirildikdən və Baxış aktı tərtib olunduqdan sonra Sığortaçı tərəfindən təqdim olunur).

20.2.4. Zərərin azalması və sığortalanmış əmlakın xilas edilməsi üçün bütün mümkün və ağlabatan tədbirləri görmək. Mümkün olduğu halda Sığortalı Sığortaçıdan göstərişlərin verilməsini tələb etməlidir.

20.2.5. Əmlak sığortası müqaviləsi üzrə sığortalı, sığorta olunan və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

a. Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;
b. sığortaçı sığorta hadisəsi barədə bu Qaydada nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;
c. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

20.2.6. Sığortaçı tərəfindən aparılan araşdırmalar zamanı onunla əməkdaşlıq etmək, bütün zəruri məlumatları təqdim etmək, hadisə ilə bağlı məlumatların toplanılması, zədələnmiş əmlaka baxışın keçirilməsi və onun müayinə edilməsi üçün Sığortaçıya şərait yaratmaq, dəymiş zərərin miqdarının və səbəblərinin müəyyən edilməsində Sığortaçının iştirakını təmin etmək.

20.2.7. Hadisənin sığorta hadisəsi olub-olmamasının müəyyən edilməsi və sığorta ödənişinin həyata keçirilməsi üçün Sığortalı (Faydalanan şəxs) baş vermiş hadisə haqqında Sığortaçıya yazılı ərizə verməlidir. Sığortalı (Faydalanan şəxs) ərizə ilə yanaşı sığorta müqaviləsini və baş vermiş hadisənin səbəblərini, xüsusiyyətlərini, dəymiş zərərin həcmini müəyyən etmək üçün zəruri olan və/və ya sığorta hadisəsi ilə əlaqədar tələb olunan digər sənədləri Sığortaçıya təqdim etməlidir. O cümlədən:

a) əmlakın məhv olması və ya itirilməsi hadisəsi ilə əlaqədar:

- baş vermiş hadisə ilə bağlı müvafiq dövlət orqanları (hüquq-mühafizə orqanları, yanğın söndürmə idarəsi, qəza xidməti və s.) tərəfindən verilmiş sənədlər;

- sığorta ödənişinin həyata keçirilməsi üzrə qərarın qəbul edilməsi üçün tələb olunan digər sənəd və məlumatlar.

b) Zərərin miqdarının azaldılmasına yönəldilmiş tədbirlərin görülməsi ilə əlaqədar:
- müvafiq xərclərin çəkilməsini təsdiq edən sənədlər.

## 21. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ. QİSMƏN SIĞORTA

21.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsi, sığortalanmış əmlakın zədələnməsi, itirilməsi və ya məhv olması anına olan bazar dəyərinin və ya dəyən zərərin məbləğinin ödənilməsi və ya, Sığortaçının mülahizəsinə əsasən, əmlakın və ya onun bir hissəsinin bərpa və ya eyni tipli əmlak ilə əvəz edilməsi yolu ilə həyata keçirilir (köhnəlməyə görə müvafiq məbləğin və, əgər sığorta müqaviləsi ilə şərtləşdirilibsə, azadolma məbləğinin çıxılması şərti ilə).

21.2. Sığorta hadisəsi baş verdiyi halda sığortalanmış əmlaka dəymiş zərərin əvəzinin ödənilməsi üzrə Sığortaçının öhdəliyi aşağıda göstərilən həddlərdən artıq ola bilməz:

a) Sığortalanmış əmlakın tam məhv olması və ya itirilməsi halında - Sığorta müqaviləsində göstərilmiş və sığortalanmış əmlakın tərkibində dəyişiklikləri nəzərə almaqla bilavasitə sığorta hadisəsindən əvvəl düzəlişlər edilmiş sığorta məbləğindən və ya hadisə zamanı əmlakın bazar dəyərindən (hər halda daha kiçik məbləğ ödənilir);

b) Sığortalanmış əmlakın zədələnməsi halında (qismən zərərin dəyməsi halında) - sığortalanmış əmlakın sığorta hadisəsinin baş verməsindən əvvəl mövcud olan vəziyyətinə gətirilməsi üçün tələb olunan xərclərdən.

Hər halda bu bəndin «a» və «b» yarımbəndlərində göstərilən hallar üzrə sığorta ödənişləri eyni sığorta müddəti ərzində əvvəllər baş vermiş sığorta hadisəsi(ləri) üzrə həyata keçirilmiş sığorta ödənişləri məbləğində azalmış və Sığortalı tərəfindən əlavə sığorta haqqının ödənilməsi yolu ilə bərpa olunmamış sığorta məbləğinin qalıq hissəsindən çox ola bilməz.

21.3. Əgər zədələnmiş əmlakın bərpa (təmir) olunmasına lazım olan vəsaitlər əmlakın qalıqlarının dəyəri ilə birlikdə əmlakın sığorta dəyərindən artıq deyilsə, həmin əmlak qismən zədələnmiş hesab olunur.
Əgər sığorta hadisəsi nəticəsində zədələnmiş əmlakın bərpa (təmir) olunmasına lazım olan vəsaitlər qalıqların dəyəri ilə birlikdə əmlakın sığorta dəyərindən artıqdırsa, həmin əmlak tam məhv olmuş hesab olunur.

21.4. Bərpa işləri üçün tələb olunan məbləğ sığorta şəhadətnaməsində göstərilən sığorta məbləğindən artıq olduqda, artıq olan hissə Sığortaçı tərəfindən ödənilmir.

21.5. Sığorta hadisəsinin baş verdiyi yerdə, əmlakın bilavasitə sığorta hadisəsinin baş verməsindən əvvəl mövcud olan vəziyyətinə gətirilməsi üçün tələb olunan xərclər, bərpa xərcləri kimi başa düşülür.

Aşağıdakılar bərpa xərclərinə daxil olunur:

- təmir (bərpa) üçün tələb olunan materiallar, ehtiyyat hissələri, detallar və aqreqatların alınması üzrə xərclər;
- təmir işlərinin ödənilməsi üçün tələb olunan xərclər.

21.6. Bərpa, təmir və təmizləmə işləri ilə bağlı hökümət orqanları tərəfindən buraxılmış qadağalar nəticəsində yaranan zərərin artması və digər əlavə xərclər Sığortaçı tərəfindən təmin olunmur.

21.7. Sığorta hadisəsinin baş verdiyi məqamda sığorta məbləği əmlakın sığorta dəyərindən az olarsa, bu halda sığorta ödənişinin məbləği sığorta məbləği ilə əmlakın sığorta dəyərinin nisbətinə müvafiq surətdə azaldılır və sığorta ödənişi aşağıda göstərilən düstura müvafiq həyata keçirilir:

**SÖ = SM/SD * DZ**

Harada:
SÖ - Sığorta ödənişi
SM - Sığorta məbləği
SD - əmlakın sığorta dəyəri (sığorta hadisəsi baş verdiyi gün onun bazar qiyməti)
DZ - əmlaka dəyən zərər

Sığorta müqaviləsində (Sığorta Şəhadətnaməsində) və/və ya sığorta müqaviləsinə qəbul edilmiş Əlavələrdə göstərilən azadolma məbləği(ləri), hər bir hadisə üzrə, yalnız hazırkı Qaydalar ilə müəyyən olunmuş Qismən Sığorta haqqında şərtin tətbiq olunmasından sonra, sığorta ödənişinin məbləğindən aşağıda göstərilən düstura müvafiq çıxılır:

**SÖ = (SM/SD * DZ) - Fr**

Harada:
SÖ - Sığorta ödənişi
SM - Sığorta məbləği
SD - əmlakın sığorta dəyəri (sığorta hadisəsi baş verdiyi gün onun bazar qiyməti)
DZ - əmlaka dəyən zərər
Fr - Sığorta müqaviləsində (Sığorta Şəhadətnaməsində) və/və ya sığorta müqaviləsinə qəbul edilmiş Əlavələrdə göstərilən azadolma məbləği(ləri)

21.8. Müəyyən əmlak qrupu üzrə sığortalanmış əmlakın bir hissəsinin zədələnməsi üzrə təminat Sığorta Şəhadətnaməsində göstərilən müvafiq məbləğlər və ya təminat limiti (sub-limitlər) ilə məhdudlaşdırılıbsa, sığorta təminatının hesablanmasının əsası olan dəymiş zərər üzrə ödənişin müəyyənləşdirilməsi zamanı həmin sub-limitlər onun həddi hesab olunur.

21.9. Sığorta hadisəsinin baş verməsi zamanı sığorta təminatı əmlakın bazar qiyməti əsasında hesablanır.

21.10. Sığorta hadisəsi baş verdiyi halda, sığorta olunmuş əmlakın xilas olunması üçün görülən tədbirlər və yanğının söndürülməsi və ya onun qarşısının alınması üçün çəkilmiş xərclərin, o cümlədən dəyə biləcək zərərin miqdarının azaldılması üçün görülmüş tədbirlər üzrə çəkilmiş xərclərin əvəzinin ödənilməsini Sığortaçı öz üzərinə götürür.

21.11. Zərərin miqdarının azaldılmasına yönəldilmiş tədbirlərin görülməsi ilə əlaqədar çəkilmiş xərclər üzrə ödəniş yalnız görülən tədbirlər ağlabatan və zəruri olduqda (görülən tədbirlərin nəticələri səmərəsiz olduqda belə) və ya Sığortaçının göstərişi ilə həyata keçirildikdə ödənilir. Ödənişin həyata keçirilməsi üçün müvafiq xərclərin çəkilməsini təsdiq edən sənədlər Sığortaçıya təqdim olunmalıdır.

21.12. Bu xərclər üzrə ödənilməli məbləğlər məhv olmuş, itirilmiş və ya zədələnmiş əmlak üzrə ödənişlərlə birgə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləğindən artıq olmamalıdır.

21.13. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta ödənişi Azərbaycan Respublikasının valyutasında ödənilir. Sığorta məbləği xarici valyutada müəyyən edilibsə, sığorta ödənişi Mərkəzi Bankın sığorta hadisəsinin gününə olan valyuta məzənnəsi ilə ödənilir.

21.14. Sığorta ödənişi Sığortaçı tərəfindən 7 (yeddi) iş günü ərzində ödənilir. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, həmin müddət Sığorta hadisəsi barədə Ərizənin və hazırkı Qaydaların 20.2.7-ci bəndində göstərilmiş və Sığortaçının tələb etdiyi digər sənədlərin təqdim olunması günündən hesablanır.

21.15. Sığorta ödənişinin həcmi Sığortalının (Faydalanan şəxsin) üçüncü tərəfdən aldığı məbləğin çıxılmasından sonra, və ya bir neçə sığorta şirkəti ilə əmlak sığortası müqavilələrinin bağlandığı halda hazırkı Qaydalar əsasında bağlanılmış sığorta müqaviləsi üzrə sığorta məbləğinin bütün digər sığorta müqavilələri üzrə ümumi sığorta məbləğinin nisbətinə müvafiq olaraq, franşizanın tətbiq olunması şərti ilə müəyyən edilir. Sığortalı belə məbləğlərin alınması barədə Sığortaçıya dərhal məlumat verməlidir.

## 22. SIĞORTA RİSKİNƏ TƏSİR EDƏN AMİLLƏR. SIĞORTA RİSKİNİN ARTMASI HAQQINDA MƏLUMAT VERMƏ VƏZİFƏSİ

22.1. Sığorta müqaviləsinin bağlanmasından əvvəl Sığortalı (Faydalanan şəxs) ona məlum olan və sığorta hadisəsinin baş vermə ehtimalına təsir göstərə biləcək faktlar və hadisənin baş verməsindən dəyə biləcək zərər haqqında məlumatı Sığortaçıya təqdim etməli və Sığortaçı tərəfindən verilmiş sualları cavablandırmalıdır. Bu qayda sığortalanan obyektə baxışın keçirilməsi zamanı da tətbiq edilir.

22.2. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, əgər sığorta müqaviləsi Sığortaçının qoyduğu hər hansı sualı Sığortalı tərəfindən cavabsız qoyularaq bağlanıbsa, Sığortaçı onun müəyyən faktlardan xəbərsiz olduğuna istinad etməklə sığorta müqaviləsinin ləğv edilməsini və ya onun etibarsız hesab edilməsini tələb edə bilməz.

22.3. Əgər müqavilənin bağlanmasından sonra riskin dərəcəsinə təsir göstərə biləcək hallar barəsində Sığortalı (Faydalanan şəxs) tərəfindən Sığortaçıya yanlış məlumatların qərəzli olaraq bildirilməsi sübut edilərsə, Sığortaçı müqavilənin etibarsız hesab edilməsini tələb edə bilər.

Sığortalının gizlətdiyi faktlar və onların nəticəsində hadisə baş verdiyi təqdirdə hadisənin nəticələri aradan qalxdığı (yox olduğu) halda Sığortaçı müqavilənin etibarsız hesab edilməsini tələb edə bilməz.

22.4. Sığortalı (Faydalanan şəxs) müqavilənin bağlanması zamanı Sığortaçıya bildirdiyi məlumat və faktlarda sığorta müqaviləsinin müddəti ərzində baş vermiş əhəmiyyətli və sığorta riskinin artmasına təsir göstərə biləcək dəyişikliklər haqqında Sığortaçıya dərhal, hər halda 7 təqvim günündən gec olmayaraq məlumat verməlidir. Bu vəzifənin düzgün yerinə yetirilməsi faktı yazılı sübut ilə təsdiq olunmalıdır. Bu müddəa Sığortalı tərəfindən Sığortaçıya müqavilənin bağlanmasından əvvəl ərizə formasında təqdim etdiyi məlumat və faktlara aiddir.

22.5. Sığorta riskinin artmasına səbəb ola biləcək faktlar haqqında məlumatlandırılmış Sığortaçı sığorta müqaviləsi şərtlərinin dəyişdirilməsini və əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər.

22.6. Sığortalı (Faydalanan şəxs) sığorta riskinin artmasına səbəb ola biləcək faktlar haqqında Sığortaçını məlumatlandırmadığı və ya sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsinə və əlavə sığorta haqqının ödənilməsinə etiraz etdiyi halda, Sığortaçı qanunvericiliyə müvafiq sığorta müqaviləsinin ləğv edilməsini və ləğv edilmənin nəticəsində dəymiş zərərin ödənilməsini tələb edə bilər.

22.7. Sığorta riskinin artmasına səbəb ola biləcək faktların aradan qalxmasından (yox olmasından) sonra Sığortaçı heç bir halda müqavilənin ləğv edilməsini tələb edə bilməz.

22.8. Sığortalı (Faydalanan şəxs) Sığortaçının razılığı olmadan riskin artmasına səbəb ola biləcək hər hansı tədbirin görülməsinə və ya onların həyata keçirilməsinə razılıq verə bilməz. Bu müddəanın pozulması Sığortaçını yalnız o halda öz öhdəliklərinin yerinə yetirməsindən azad edir ki, sığorta hadisəsi riskin artmasından sonra baş versin.

22.9. Sığorta riskinin artması sığorta hadisəsinin baş verməsinə və Sığortaçının öhdəliyinin yerinə yetirilməsi həcminə təsir göstərmədiyi halda Sığortaçının ödənişin həyata keçirilməsi üzrə öhdəliyi qüvvədə qalır.

22.10. Sığorta obyekti kommersiya məqsədləri üçün istifadə olunan əmlak olduqda Sığortalı istehsalatın növündən və həcmindən asılı olmayaraq yeni istehsalatın başlanması və mövcüd olan istehsalatın dəyişməsi haqda məlumatı dərhal Sığortaçıya çatdırmalıdır.

22.11. Qaydalara əsasən Sığortalı (Faydalanan şəxs) sığortalanmış əmlakı icarəyə verməsi haqqında, sığorta təminatının qüvvədə olduğu yerdə yerləşən binaların və tikililərin sökülməsi, yenidən tikilməsi, yeni avadanlıqla təchiz edilməsi haqqında, həmçinin hazırkı Qaydalara müvafiq olaraq sığorta hadisəsi olub-olmamasından asılı olmayaraq əmlakın zədələnməsi və ya məhv olması haqqında məlumatı Sığortaçıya çatdırmalıdır.

## 23. SIĞORTA ÖDƏNİŞİNİ VERMƏKDƏN İMTİNA

23.1. Sığortaçı sığorta ödənişinin ödənilməsindən aşağıdakı hallarda imtina edə bilər:

23.1.1. Əgər Sığortalı (Faydalanan şəxs) sığorta hadisəsinin baş verməsi haqqında qanunvericiliyə müvafiq və sığorta müqaviləsində göstərilmiş müddət ərzində və müəyyən edilmiş qaydada Sığortaçıya məlumat verməyibsə, bir şərtlə ki vaxtında məlumat verməmə sığortaçını hadisəni araşdırmaq və zərəri qiymətləndirmək imkanından tam və qismən məhrum etmiş olsun.

23.1.2. Sığortalı (Faydalanan şəxs) sığorta obyekti, riskin dəyişməsi və ya sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarı haqqında bilərəkdən təhrif olunmuş və ya yanlış məlumatı Sığortaçıya təqdim edibsə.

23.1.3. Sığortalı (Faydalanan şəxs) dəyə biləcək zərərlərin azalması və ya qarşısının alınması üçün mümkün və ağlabatan tədbirləri görmək iqtidarında olduğu halda həmin tədbirləri qəsdən görmədikdə,lakin bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki,sığortalı mümkün tədbirləri görmüş olsaydı,zərərin miqdarı həmin həcmdə azalmış olardı.

23.1.4. Qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa,sığortalının,müvafiq zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi .

23.1.5. Sığortalı (Faydalanan şəxs) hadisə barədə müvafiq səlahiyyətli orqanlara məlumat vermədikdə, lakin sığorta hadisəsi nəticəsində dəymiş zərərin səbəbinin və xarakterinin müəyyən edilməsi bunu tələb etdikdə.

23.1.6. Müvafiq səlahiyyətli orqanlar sığorta hadisəsi faktının baş verməsini təsdiq etmədikdə.

23.1.7. Sığortalı (Faydalanan şəxs) hazırkı Qaydaların 20.2.7-ci bəndində göstərilən sənədləri təqdim etmədikdə.

23.1.8. Sığortalı (Faydalanan şəxs) dəymiş zərərin əvəzini zərərin yaranmasında təqsirli olan şəxsdən aldıqda.

23.1.9. Sığorta müqaviləsi və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması.

23.1.10.Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına Sığortalı tərəfindən maneçilik törədilməsi,əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyən etmək imkanından tam və ya qismən məhrum etməsi

23.1.11.Baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə müvafiq sığorta hadisəsi hesab edilməməsi

23.1.12.Azərbaycan qanunvericiliyi və ya sığorta müqaviləsinin şərtləri ilə nəzərdə tutulmuş digər hallarda.

23.2. Sığorta ödənişinin verilməsindən imtina Sığortalıya, səbəbləri göstərilməklə, yazılı şəkildə təqdim olunmalıdır.

23.3. Sığortaçının sığorta ödənişinin verilməsindən imtina etməsi əsasında, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada, məhkəmədə iddia irəli sürülə bilər.

## 24. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNA MÜDDƏTİ

Bu qaydaların 20.2.7-ci maddəsində nəzərdə tutulan sənədlərdən sonuncusunun sığortaçıya daxil olduğu tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq sığortaçı sığorta ödənişini verməli, yaxud sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etməlidir.

## 25. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

25.1. Bu Qaydalar Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tərtib edilib və tərəflər lazımi qaydada riayət etməlidirlər.

25.2. Bu Qaydalar üzrə tərəflərdən biri müqavilədən irəli gələn öhdəliklərini yerinə yetirmədikdə və yaxud lazımınca yerinə yetirmədikdə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq digər tərəfə vurduğu ziyanın əvəzini ödəməlidir.

## 26. SIĞORTALININ ZƏRƏRİN ÖDƏNİLMƏSİ ÜZRƏ TƏLƏB HÜQUQUNUN SIĞORTAÇIYA KEÇMƏSİ (SUBROQASİYA)

26.1. Əgər sığortalı dəymiş zərər üzrə ödənişi üçüncü şəxslərdən alıbsa, sığortaçı yalnız sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğin və üçüncü şəxslər tərəfindən ödənilmiş məbləğin arasında olan fərqi ödəməlidir. Sığortalı üçüncü şəxslər tərəfindən edilmiş və ya edilə biləcək ödənişlər barəsində dərhal sığortaçıya xəbər verməlidir.

26.2. Sığorta ödənişi həyata keçirildikdən sonra zərərin baş verməsində təqsirli olan şəxsə (lərə) qarşı Sığortalının zərərin ödənilməsi üzrə tələb hüququ, həyata keçirilmiş sığorta ödənişi məbləğində Sığortaçıya keçir.Sığortaçıya keçmiş üçüncü şəxslərə qarşı tələb hüququnun həyata keçirilməsi üçün Sığortalı lazımi tədbirləri görməli və tələb olunan sənəndləri Sığortaçıya təqdim etməlidir.

26.3. Əgər Sığortalı Sığortaçı ilə razılaşdırmadan bu hüququndan imtina edərsə və ya bu hüququn həyata keçirilməsi Sığortalının təqsiri üzündən mümkün olmazsa, Sığortaçı yuxarıda göstərilmiş hərəkətlər nəticəsində ona dəymiş zərər həcmində ödənişin edilməsindən azad olunur. Belə hal Sığortaçı tərəfindən Sığortalıya ödəniş verildikdən sonra aşkar olunarsa, Sığortalı Sığortaçıya həmin məbləği qaytarmalıdır.

## 27. SIĞORTALANMIŞ ƏMLAKIN ÖZGƏNİNKİLƏŞDİRİLMƏSİ

27.1. Sığortalanmış əmlak özgəninkiləşdirildikdə, Sığortalının hüquq və vəzifələri əldə edənə keçir.

27.2. Əldə edən və ya özgəninkiləşdirən tərəfindən sığortalanmış əmlakın özgəninkiləşdirilməsi haqqında Sığortaçıya dərhal məlumat verilməlidir.

27.3. Sığortaçı Əldə edənə ən azı 30 gün əvvəl sığorta müqaviləsini ləğv etmək tələbini əsaslandırdığı yazılı bildiriş göndərməklə onunla olan sığorta münasibətlərinə xitam vermək hüququna malikdir.

27.4. Əldə edən sığorta müqaviləsini yalnız dərhal və ya sığortanın cari dövrünün sonuna yaxın ləğv edə bilər. Əgər əldə edən əmlakı əldə etdikdən sonra bir ay ərzində müqaviləni ləğv etmək hüququndan istifadə etməzsə, bu hüququ itirir, əldə edən sığortadan xəbərdar olmadıqda isə ləğvetmə hüququ əldə edənin sığorta münasibətlərindən xəbər tutduğu andan bir ay keçənədək qüvvədə qalır.

27.5. Əgər sığorta müqaviləsinə bu maddənin qaydaları əsasında xitam verilmişdirsə, özgəninkiləşdirən Sığortaçıya sığorta haqqı ödəməlidir, lakin bu haqq onun sığorta dövrü ərzində, müqavilənin ləğvi məqamı da daxil olmaqla, ödəməlı olduğundan artıq olmamalıdır; bu halda əldə edən sığorta haqqının ödənilməsi üçün məsuliyyət daşımır.

27.6. Sığortaçı sığortalanmış əmlakın özgəninkiləşdirilməsi ilə bağlı baş vermiş dəyişikliklərlə əlaqədar olaraq riskin qiymətləndirilməsi üçün zəruri olan məlumatları əldə edəndən tələb edə bilər və bu cür dəyişikliklər riskin artmasına səbəb olduqda Sığortaçı əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər.

27.7. Sığortalanmış əmlakın özgəninkiləşdirilməsi ilə əlaqədar Sığortaçı sığorta müqaviləsinə müvafiq dəyişikliklər edir.

## 28. ƏRİZƏ FORMASI VƏ SIĞORTA MÜQAVİLƏSİNƏ QƏBUL EDİLMİŞ ƏLAVƏLƏR

28.1. Sığortalı tərəfindən doldurulmuş Sığorta Ərizəsi bu sığorta müqaviləsinin ayrılmaz hissəsi sayılır. Sığorta müqaviləsinin bağlanmasından sonra sığortalı tərəfindən sığorta hadisəsinin baş verməsi ehtimalı üzrə vacib məlumatı və ya onun baş verməsindən dəyə biləcək zərərlərin həcmi (sığorta riski) barəsində sığortaçıya yanlış məlumatın verilməsi və bu barədə məlumatın verilməməsi aşkarlanarsa, və sığorta müddəti ərzində haqqında yanlış məlumatlar verilən şəraitlər ilə əlaqədar olan sığorta hadisəsi baş verərsə, yalnış məlumatların verilməsinin sığortaçıya əvvəlcədən məlum olduğu və ya belə məlumatların verilməsində sığortalının təqsirinin olmadığı hallar istisna edilməklə, bu faktlar sığorta ödənişinin verilməməsinə və müqavilənin etibarsız hesab edilməsinə gətirə bilər.

28.2. Bu Qaydalar əsasında bağlanılmış sığorta müqaviləsinə Əlavələr tərəflərin razılığı ilə yazılı surətdə qəbul edilir, müqavilənin ayrılmaz tərkib hissəsini təşkil edir və bu Qaydalarda mövcud olan şərtləri dəyişdirə və ya müəyyənləşdirilməyən şərtləri qəbul edə bilər.

## 29. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ QAYDASI

Sığorta müqaviləsinə edilən əlavələr və dəyişikliklər yazılı formada tərtib olunmalı və hər iki tərəfdən imzalanmalıdır.

## 30. MÜBAHİSƏLƏRİN HƏLL EDİLMƏSİ

Hazırki müqavilə ilə bağlı bütün məsələlər, o cümlədən tərəflər arasında yaranan fikir ayrılığı və mübahisələr bir qayda olaraq danışıqlar yolu ilə həll edilir. Əgər danışıqlar yolu ilə nəticə əldə edilməzsə, mübahisələrlə əlaqədar Azərbaycan Respublikasının Mərkəzi Bankına və Azərbaycan Respublikasının məhkəmələrinə müraciət edilməlidir.

# 31. SIĞORTA TARİFLƏRİ VƏ ONLARIN İQTİSADİ ƏSASLANDIRILMASI.

Tarif dərəcələri əsaslandırılarkən əvvəlcə netto dərəcələr hesablanır. Netto dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

Sığorta hadisəsinin baş verməsi ehtimalı - (q)=0.03;

Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği - (So)=20 400 AZN;

Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi - (Sö)=3 000 AZN;

Bağlanacaq sığorta müqavilələrinin sayı - (n)=450;

Netto dərəcə - (Tn);

Netto dərəcənin əsas hissəsi - (Tə);

Risk üstəliyi - (Tr);

Netto dərəcənin əsas hissəsi 100 AZN sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

$$(Tə) = 100\times(q)\times(Sö)/(So)=100\times0.03\times3000/20400=0.44 \text{ AZN}$$

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını 0.98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal a=2 olur. Risk üstəliyi aşağıdakı düsturla hesablanır:

$$(Tr)=1.2\times Tə\times a\times((1-q)/(nq))^{1/2} =0.44\times1.2\times2\times((1-0.03)/(450\times0.03))^{1/2} =0.28 \text{ AZN}$$

$$(Tn)=(Tə)+(Tr)=0.44+0.28=0.72 \text{ AZN}$$

Tarif dərəcəsinin strukturu: netto dərəcə - 60%,yükləmə - 40%. O cümlədən işlərin aparılması xərci 39%, tarif mənfəəti-1%.

Brutto dərəcəni (Tb) ilə işarə edək. Onda brutto dərəcənin hesablanması düsturuna əsasən

$$(Tb)=(Tn)/(1-f)=0.72/(1-0.4)=0.72/0.6=1.20 \text{ AZN}$$

Sığortalının aşağıda qeyd olunan amillədən asılı olaraq baza tarif dərəcəsinə azaldıcı və artırıcı əmsallar tətbiq edilir. Ona görə də, yekun tarif dərəcəsi 0.02%-7% aralığında dəyişir:

| *Amil* | *Əmsal* |
|---|---|
| İstehsal və ya qeyri-istehsal sahəsində çalışma | 0.5 - 2.5 |
| Yerinə yetirilən işin təhlükəlilik dərəcəsi | 0.5 - 2.5 |
| Əlavə sığorta təminatının(ların) tədbiqi | 1 - 3.5 |
| Riskin yerləşmə ərazisi | 0.5 - 2.5 |
| Təhlükəsizlik tədbirləri | 0.5 - 2.5 |
| Riskə təsir göstərən digər hallar | 0.5 - 2.5 |

22 (iyirmi iki) vərəqdən ibarətdir

«MEQA SIĞORTA» ASC * «MEGA INSURANCE» OJSC *